Amansız ölüm qələm yoldaşımız, tanınmış şair-tərcüməçi Qoca Xalidi aramızdan apardı.



**Qoca XALİD**

Qoca Xalid 25 may 1954-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuşdur.

1971-ci ildə Şəki rayonu Kiçik Dəhnə kənd orta məktəbini bitirmişdir. Həmin ildə Azərbaycan Politexnik İnstitutuna (indiki Texniki Universitet) daxil olmuş, ikinci kursda öz ərizəsi ilə könüllü surətdə orduya getmişdir. Ordudan qayıtdıqdan sonra Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, üçüncü kursda universitetdən çıxmış və uzun illər Moskvada təhsil almaq arzusu ilə yaşamışdır.

1998-ci ildə böyük rus şairi Yuri Kuznetsov onu Moskva Ali Ədəbiyyat Kurslarında öz seminarına dəvət etmişdir.

Qoca Xalid M.Qorki adına Ədəbiyyat İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir.

Qoca Xalid "səksənincilər" ədəbi nəslinin parlaq üslubu olan, sayılıb-seçilən şairlərindəndir. O, 1986-cı ildə işıq üzü görən "Sakit çöllərin mahnısı" şeir kitabı ilə poeziyaya torpaq qoxulu bir şairin gəldiyini sübut etdi. "Bu su Dəhnədən gəlir" şeirlər kitabı da Qoca Xalidin orijinal üslubunu göstərməklə, müəllifinə geniş oxucu auditoriyası qazandırdı.

1999-cu ildə azərbaycanlı şairin Moskvanın "Akademiya" nəşriyyatında böyük tirajla nəşr olunan "Dojd vospominaniya" ("Xatirə yağışı") kitabı rus oxucuları arasında sürətlə yayılır.

Qoca Xalid tənqidçi İlham Abbasovun geniş və maraqlı ön sözü ilə nəşr olunan "Bir uzun küçə" şeir kitabının həmmüəlliflərindən biridir.

Qoca Xalid orijinal üslubu olan dəyərli şair olmaqla yanaşı, istedadlı tərcüməçi idi. Onun tərcüməçilik fəaliyyəti həm ölkəmizdə, həm də əsərlərini tərcümə etdiyi şairlərin vətənində qiymətini almışdır.

Şairin "Bir dənizdən yeddi damla" (1993), "Yaz suları..." (1997), "Zirvədə izim qalıb" (2006), "Kənd axşamları" (2007), "O, döyüşdən qayıtmadı" (2011), "Şeirlər" (Y.Kuznetsovdan. 2009), "Mən də cığır açdım" (2013), "Seçmə şeirlər. Rus poeziyası" (2024) kimi tərcümə kitabları onun və ümumən tərcümə ədəbiyyatımızın uğurları sayılmağa layiqdir.

Qoca Xalid Rusiya Xalqlarının VII Artiadasının və Beynəlxalq Nikolay Rubtsov mükafatlarının laureatıdır. Moskvada keçirilən müxtəlif konfransların, 2023-cü ildə isə Nijniy Novqorod şəhərində keçirilən Qorki adına VII Beynəlxalq festivalın iştirakçısı və mükafatçısıdır.

Qoca Xalidin şeirləri dünyanın müxtəlif ölkələrinin aparıcı ədəbi orqanlarında - "Qardaş qələmlər" (Ankara), "Yunost", "Literaturnaya uçyoba" (Moskva), "Vışqorod" (Tallin) jurnallarında, qəzet və almanaxlarda dərc olunmuşdur.

Qoca Xalid prezident təqaüdçüsü idi.

Qoca Xalidin şəxsiyyəti və işıqlı xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**